Bülleten № 07 / iyul 2013

Elektron Hökumət Portalı

your gateway to all public services

www.e-gov.az

Rabitə və İnformasiya Texnologiyalari Nazirliyinin
Məlumat Hesablama Mərkəzi

İYUL 2013

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



# BMT Azərbaycanı texnologiyaların inkişafında region üçün nümunə hesab edir



**Azərbaycanda yüksək texnologiyalar sahəsinin inkişafı regionun əksər ölkələri üçün yaxşı nümunədir. Bu fikri BMT baş katibinin qlobal tərəfdaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi Əmir Dossal söyləyib.**

"Biz Azərbaycanı yüksək texnologiyalar sahəsində dəyişikliklərdə ön cərgələrdə görürük. Azərbaycan bu sahədə region ölkələri üçün nümunəyə çevrilir", - bu həftə Bakıda səfərdə olan diplomat bildirib.

Ə. Dossalın sözlərinə görə, texnologiyaların inkişafında tərəqqi ölkədə elektron təhsil, elektron hökumət, eləcə də yüksək texnologiyaların verdiyi çoxlu digər imkanların inkişafı üçün fəal şəkildə istifadə oluna bilər. Onun sözlərinə görə, informasiya texnologiyaların inkişafı sayəsində ünsiyyət üsullarının sadələşdirilməsi ölkə qarşısında ticarət və biznes sahəsində də yeni imkanlar açır.

Diplomat həmçinin onu da qeyd edib ki, Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov BMT-nin rəqəmli inkişafa xidmət edən Genişzolaqlı rabitə üzrə Komissiyasının tərkibinə daxildir.

# Əfqanıstan Azərbaycanın elektron idarəçilik sahəsində əldə etdiyi uğurlu təcrübədən yararlanacaq

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Azərbaycan Beynəlxalq İnkişaf Yardım Agentliyi Əfqanıstanın inkişafı üçün BMT-nin İnkişaf Proqramı çərçivəsində 150.000 ABŞ dolları məbləğində maliyyə yardımı göstərib. İKT İnformasiya Mərkəzindən verilən məlumata görə, Əfqanıstanın gələcəyi həm regional, həm də qlobal təhlükəsizlik və sabitlik üçün xüsusi əhəmiyyət kəsb edir və Azərbaycan aparıcı beynəlxalq tərəf müqavilələri ilə bərabər, Əfqanıstanın qarşısında duran problemlərin həll edilməsində qardaş əfqan xalqını fəal dəstəkləyir.

Azərbaycanın Əfqanıstanın problemlərinə həsr olunmuş bir neçə mötəbər toplantıda etdiyi bəyanatlara və xüsusilə də Azərbaycan prezidenti İlham Əliyevin 2012-ci ilin mayında Çikaqoda keçirilmiş və dünyanın aparıcı ölkələrinin liderlərinin iştirak etdiyi Əfqanıstan üzrə NATO zirvə toplantısında etdiyi bəyanatına uyğun ölkəmiz öz təcrübəsini bölüşmək üçün hazır olduğunu bildirib və bunu bir çox sahələrdə artıq əməli işlərlə sübut etməkdədir.

Belə ki, son il ərzində əfqan rəsmiləri Azərbaycan Diplomatik Akademiyasının, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin, Dövlət Neft Fondunun, Azərbaycan Prezidenti yanında Dövlət Qulluğu Komissiyasının, Dövlət Neft və Qaz Şirkətinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Sosial Müdafiə Fondunun işində tətbiq edilən qabaqcıl inkişaf təcrübəsi ilə yaxından tanış olmuş, bu istiqamətdə məhsuldar müzakirələr aparmışlar.

Onu da qeyd etmək lazımdır ki, həmin müzakirələr nəticəsində əldə edilən ilkin razılaşmaların həyata kecirilməsi üçün bir çox istiqamətlərdə hal-hazırda həm Bakıda, həm də Kabulda fəal işlər həyata keçirilməkdədir. Beləliklə, yuxarıda göstərilən maliyyə yardımı öncə aparılan işlərin məntiqi davamı olmaqla Azərbaycanın beynəlxalq səviyyədə fəal mövqe tutaraq qlobal əhəmiyyət kəsb edən proseslərdə sadəcə olaraq təcrübə mübadiləsi ilə kifayətlənməyərək mötəbər donor ölkələri sırasına daxil olmaqdadır.

Azərbaycan Beynəlxalq İnkişaf Yardım Agentliyinin BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirdiyi bu təşəbbüs həm qardaş əfqan xalqı, həm də Əfqanıstanın inkişafına dəstək verən digər ölkələr və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməkdədir. Azərbaycan hökuməti tərəfindən ayrılan bu məbləğin əfqan hökumətinin elektron idarəçilik üsullarının pilot olaraq tətbiq edilməsi üçün istifadə ediləcəyi gözlənilir. Bu isə Azərbaycanın elektron idarəçilik sahəsində əldə etdiyi uğurlu təcrübə ilə bilavasitə əlaqədardır ki, bu sahədə bir neçə layihə BMT-nin İnkişaf Proqramının fəal iştirakı ilə həyata keçirilib.

Əfqan rəsmiləri Azərbaycanın bu sektorda təcrübəsinə xüsusi maraqlarını Əfqanıstanın rabitə və informasiya texnologiyaları naziri Əmirzai Sanginin keçən ildə Bakıya səfəri və Azərbaycanın xarici işlər naziri cənab Elmar Məmmədyarov və Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri cənab Əli Abbasov ilə görüşləri zamanı vurğulayıb.

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# Əfqanıstan hökuməti elektron idarəçilik sahəsində Azərbaycanın təcrübəsini inkişaf modeli kimi görür

***Azərbaycanın e-idarəçilik sahəsindəki nailiyyəti bir çox ölkələr və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Bu, Azərbaycanın inkişaf naminə e-idarəçilik sahəsindəki potensialın istifadəsində və BMTİP ilə birgə həyata keçirilən digər layihələrdəki uğurlu təcrübəsilə bilavasitə bağlıdır.***



Bir çox inkişaf etməkdə olan və keçid dövrünü yaşayan ölkələr Azərbaycanın uğurlu inkişaf modelini nəzərdən keçirir və onun təcrübəsindən yararlanmağı qarşılarına əsas məqsəd kimi qoyurlar. Hər zaman beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olan Əfqanıstan İslam Respublikası da onlardan biridir. Əfqanıstanın inkişafına Azərbaycanın dəstəyi ən çox e-idarəçilik sahəsində özünü büruzə verir. Əfqanıstana dəstək olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən verilən bəyanatlardan sonra Azərbaycan Əfqanıstan hökumətinin müvafiq qurumları ilə əməkdaşlığını daha da genişləndirmişdir. Əfqanıstan hökuməti informasiya və kommunikasiya texnologiyaları sahəsində Azərbaycanla əməkdaşlığa böyük maraq göstərdiyini dəfələrlə qeyd etmiş və Azərbaycanın e-idarəçilik sahəsində nailiyyətlərini nəzərə alaraq, BMTİP-nin Azərbaycanda və Əfqanıstanda Ölkə üzrə nümayəndəlikləri e-idarəçilik sahəsində Azərbaycanın Əfqanıstana yardım göstərməsinə dəstək olmağa dair razılığa gəlmişlər.

BMTİP tərəfindən təşkil edilmiş Əfqanıstanın dövlət rəsmilərindən ibarət yüksəksəviyyəli nümayəndə heyətinin səfəri bu istiqamətdə atılan mühüm addımlardan biridir. Əfqanıstan İslam Respublikası hökumətinin kommunikasiya və informasiya texnologiyaları naziri, cənab Əmirzai Sanginin başçılıq etdiyi 26 dövlət rəsmisindən ibarət nümayəndə heyətinin 09–15 iyun tarixlərində Bakıda Azərbaycanın dövlət qurumlarında, o cümlədən Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində (RİTN) görüşlər keçirmişlər.

* * *

Əfqanıstan İslam Respublikası nümayəndə heyətinin Azərbaycana rəsmi səfəri çərçivəsində Bakıda "Elektron idarəçilik sahəsində Azərbaycanın təcrübəsi" mövzusunda konfrans keçirilib.



Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) və BMT-nin İnkişaf Proqramının təşkilatçılığı ilə keçirilən tədbirdə rabitə və informasiya texnologiyaları nazirinin müavini Elmir Vəlizadə Azərbaycanın İKT siyasətinə həsr olunmuş geniş təqdimatla çıxış edib. 2013-cü ilin Azərbaycanda "İKT ili" elan edildiyini qeyd edən nazir müavini ölkədə inkişaf xəttinin "qara qızıl"ın insan kapitalına çevrilməsi üzərində qurulduğunu qeyd edib.

E.Vəlizadə ötən müddətdə bir sıra dövlət proqramlarının qəbul edildiyini, xüsusən "Elektron Azərbaycan" Dövlət Proqramının mərhələli icrasının həyata keçirildiyini, bu kontekstdə ölkədə "Elektron hökumət" infrastrukturunun qurulduğunu, elektron imza və elektron xidmətlərin tətbiqinə başlanıldığını, Nazirlər Kabineti tərəfindən hazırlanan elektron xidmətlər siyahısına 417 xidmətin daxil olunduğunu, artıq 40 dövlət qurumunun "Elektron hökumət" portalına qoşulduğunu, hazırda elektron xidmətlərin çeşidinin artırılması və əhatə dairəsinin genişləndirilməsi ilə bağlı işlərin davam etdirildiyini deyib, ölkədə "Yüksək Texnologiyalar Parkı"nın, eləcə də İKT fondunun fəaliyyətinin təşkili üzərindən işlərin aparıldığını bildirib.

Azərbaycanın İKT sektoru üzrə təqdimatını böyük maraqla qarşılayan Əfqanıstanın kommunikasiya və informasiya texnologiyaları nazirinin müavini Baryalai Hessam ölkəmizin İKT sahəsi üzrə, xüsusən "Yüksək Texnologiyalar Parkı"nın təşkili üzrə təcrübəsinə böyük maraq göstərdiklərini, bu sahədə təcrübənin bölüşdürülməsinin Əfqanıstan tərəfi üçün faydalı ola biləcəyini vurğulayıb.

BMT-nin İnkişaf Proqramının Əfqanıstandakı baş müşaviri Sultan Hacıyev isə hər iki dövlətin oxşar problemlər dövrünü keçdiyinə diqqət çəkərək, Əfqanıstanın hazırda Azərbaycanın 20 il əvvəlki problemləri ilə üz-üzə qaldığını bildirib.

Hazırda isə elektron idarəçilik sahəsində Azərbaycan modelinin digər dövlətlər üçün yaxşı nümunə, uğurlu təcrübə modeli olmasını qeyd edən S.Hacıyev beynəlxalq təcrübəyə əsaslanaraq, hər iki ölkənin birgə araşdırmalar aparacağını deyib. Daha sonra tədbir elektron idarəçilik, elektron həllər sahəsində Azərbaycan tərəfinin müxtəlif təqdimatları və müzakirələr əsasında davam edib.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# "Elektron hökumət"lə bağlı ən yaxşı yazı müsabiqəsi: Hər kəs iştirak edə bilər!

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi "İKT ili" çərçivəsində "Respublikada "Elektron Hökumət": mövcud vəziyyət, problemlər, perspektiv və gözləntilər" mövzusunda analitik məqalə müsabiqəsi elan edir.**

Müsabiqədə jurnalistlərlə yanaşı, elmi işçilər, mütəxəssislər və maraqlı olan digər şəxslər iştirak edə bilər. Müsabiqədə iştirak etmək istəyən şəxs www.e-gov.az portalında qeydiyyatdan keçməli və məqalələri göndərərkən qeydiyyat nömrəsini e-məktuba əlavə etməlidir. Qeydiyyat tarixi 28 avqust 2013-ci il tarixnədəkdir.

Müsabiqə 2 mərhələdə keçiriləcəkdir. Birinci mərhələ 2013-cü il 15 iyul-31 avqust, ikinci mərhələ 01-20 sentyabr tarixlərini əhatə edəcək. Birinci mərhələdə iştirakçılar məqaləsini hər hansı bir qəzet, jurnal və ya elektron KİV-də dərc etdirməli, dərc olunmuş qəzet, jurnal səhifəsinin scan edilmiş surəti və ya məqalənin İnternet ünvanını Təşkilat Komitəsinə göndərməlidir. Məqalələrin dərc olunma tarixi qeydiyyat tarixindən sonrakı tarixə uyğun olmalıdır.

Birinci mərhələnin nəticələrinə əsasən Təşkilat Komitəsi tərəfindən qiymətləndirilmiş 10 nəfər ikinci mərhələyə keçəcəkdir. Bu mərhələdə onlar Təşkilat Komitəsi tərəfindən müəyyən ediləcək mövzular üzrə məqalələr hazırlayıb dərc etdirməlidirlər.

İştirakçı tərəfindən müsabiqəyə təqdim edilən məqalə sayına məhdudiyyət qoyulmur və qeydiyyat dayandırılana qədər iştirakçı məqaləsindən imtina edib yeni məqalə ilə çıxış edə bilər.

Hər bir məqalədə elektron hökumət portalının ünvanının (www.e-gov.az) göstərilməsi əsas şərtlərdəndir. Dərc olunmuş məqalənin elektron variantı "Elektron Hökumət Portalının" Facebook və Twitter səhifəsində açıq müzakirəyə yerləşdirilməsi üçün təqdim olunmalidir. Qeyd olunan şərtlərə uyğun olmayan məqalələr Təşkilat Komitəsi tərəfindən baxılmayacaqdır.

Təşkilat Komitəsi qiymətləndirmə zamanı məqaləyə sosial şəbəkələrdən daxil olmuş rəyləri, iştirakçının "Elektron Hökumət" Portalından istifadə fəallığını, portalın analiz olunmasında "Elektron Hökumət" bülletenlərinə istinadları və təcrübi digər faktları nəzərə alacaqdır. Qiymətləndirmənin nəticələri "Elektron Hökumət" portalında dərc olunacaq.

2013-cü ilin sentyabr ayında müsabiqənin yekunlarına həsr olunmuş təqdimat mərasimi keçiriləcək, qaliblər mükafatlandırılacaq və ən yaxşı məqalələr "Elektron Hökumət" portalında (www.e-gov.az) elan olunacaqdır.

## MÜSABİQƏNİN MÜKAFAT FONDU:

Qran Pri - **3000 manat**
1-ci yer - **2500 manat**
2- ci yer - **1500 manat**
3- cü yer - **1000 manat**
4- 10 -cu yerlər – **noutbuklar**

İştirakçıların hər birinə e-imza vəsiqəsi, kart oxuyucusu, 6 aylıq "Azdatacom" internet xidməti (2 Mb/s) hədiyyə ediləcək.
Müsabiqə üçün yazılmış məqalələr bu ünvana göndərilməlidir: *musabiqa@rabita.az*

Müsabiqə haqda daha geniş məlumatları ***www.e-gov.az*** "Elektron Hökumət" Portalından, eləcə də RİTN-nin Mətbuat xidmətindən əldə etmək olar.

əlaqə telefonları **157 (dax. 4), 598-42-71**
**fax: 565-14-52**

## *Yanvar - İyun 2013-də Elektron hökumət portalına daxil olmuş istifadəçiləri daha çox hansı brauzerlərdən istifadə ediblər?*

| Browser | Visits | Pages / Visit | Avg. Visit Duration | % New Visits | Bounce Rate |
|---|---|---|---|---|---|
| | 243,557<br>% of Total: 100.00% (243,557) | 3.37<br>Site Avg: 3.37 (0.00%) | 00:04:27<br>Site Avg: 00:04:27 (0.00%) | 61.76%<br>Site Avg: 61.54% (0.36%) | 42.29%<br>Site Avg: 42.29% (0.00%) |
| 1. Chrome | 123,745 | 3.38 | 00:04:32 | 60.88% | 41.92% |
| 2. Opera | 48,303 | 3.33 | 00:04:33 | 58.88% | 44.30% |
| 3. Internet Explorer | 30,245 | 3.76 | 00:04:46 | 65.86% | 38.25% |
| 4. Firefox | 23,637 | 3.31 | 00:04:12 | 59.58% | 42.32% |
| 5. Safari | 5,632 | 2.59 | 00:02:56 | 73.35% | 48.93% |
| 6. Android Browser | 4,195 | 2.92 | 00:03:31 | 69.32% | 45.86% |
| 7. Opera Mini | 3,945 | 2.70 | 00:03:22 | 76.12% | 45.50% |
| 8. YaBrowser | 1,871 | 3.99 | 00:05:01 | 56.28% | 39.23% |
| 9. Mozilla Compatible Agent | 500 | 2.45 | 00:03:17 | 92.00% | 48.60% |
| 10. Safari (in-app) | 316 | 2.77 | 00:02:43 | 80.38% | 48.73% |

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## İlham Əliyev və Mehriban Əliyeva facebookda da birincidilər

**"qhtxeber.az" Hüquq İnformasiya Portalının Redaksiya Heyəti tərəfindən Azərbaycan Respublikasının bütün hökumət qurumları və hökumət rəsmilərinin facebook səhifələri ilə bağlı monitorinqi davam edir.**

Facebook sosial şəbəkəsində aparılan monitorinq nəticəsində, dövlət orqanları və rəsmilərindən 27-si istisna olmaqla digərlərinin bu sosial şəbəkəyə qismən önəm verdiyi, yaxud ümumiyyətlə önəm vermədiyi ortaya çıxıb.

qhtxeber.az-a verilən məlumata görə, Facebook sosial şəbəkəsində aparılan monitorinq nəticəsində, dövlət orqanları və rəsmilərindən 27-si istisna olmaqla digərlərinin bu sosial şəbəkəyə qismən önəm verdiyi, yaxud ümumiyyətlə önəm vermədiyi ortaya çıxıb.

Facebook sosial şəbəkəsində rəsmi şəxs və ya qurumların bəzilərinin siyahısı (rəqəmlər yuvarlaq verilib) Azərbaycan Respublikasının prezidenti İlham Əliyev (185 000 like), Elektron Hökumət Portalı (49 500 like), "ASAN Xidmət" (46 600 like), Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (22 500 like), Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi (14 600 like), Fövqəladə nallar naziri Kəmaləddin Heydərov (14 000 like) belədir.

Dövlət rəsmilərindən facebook sosial şəbəkəsinə daha çox önəm verən şəxslərin siyahısı isə belədir: Azərbaycan Respublikasının prezidenti İlham Əliyev (185 000 like), Fövqəladə hallar naziri Kəmaləddin Heydərov (14 000 like), Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov (3 400 like), Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov (1 900 like).

Milli Məclisin deputatları arasında facebook sosial şəbəkəsində ən aktiv olanı Heydər Əliyev Fondunun prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevaya məxsus səhifədir (71 000 like).

## "Elektron hökumət" portalının rəsmi "Facebook" səhifəsində istifadəçilərin sayı sürətlə artır

**"Elektron hökumət" portalının rəsmi "Facebook" səhifəsi (www.facebook.com/egov.az) fəaliyyətini genişləndirməkdə davam edir. Hazırda səhifə istifadəçilərin sayı artıq 50 mini ötüb.**




Sözügedən "Facebook" səhifəsi ölkəmizdə "Elektron hökumət"in formalaşması istiqamətində görülən və nəzərdə tutulan işlər, layihələr haqda vətəndaşlarımızı maarifləndirmək, dövlət strukturlarının göstərdiyi elektron xidmətlərin hər bir vətəndaş üçün açıq olaraq portalda yerləşdirilməsini işıqlandırmaq, eyni zamanda ölkəmizdə informasiya cəmiyyəti quruculuğunda aparılan işləri təhlil və müzakirə etmək, istifadəçiləri keyfiyyətli elektron xidmətlərlə təmin etmək məqsədilə yaradılıb. Qeyd edək ki, "Elektron Hökumət" Portalı üzərindən e-xidmətlərdən faydalanmaq istəyən istifadəçilər "Facebook" səhifəsinə daxil olaraq öz fikirlərini bildirir və paylaşırlar. Səhifəyə ünvanlanan suallar sosial tələb olaraq qəbul edilir, operativ şəkildə cavablandırılır, irəli sürülən təklif və rəylər mütəmadi olaraq nəzərə alınır.

## "Asan imza" "Elektron hökumət" portalına inteqrasiya ediləcək

**"ICTnews" xəbər xidməti bildirir ki, yaxın zamanda vergi ödəyicilərinə "Asan imza" xidməti təqdim ediləcək.**

"Hazırda biz "Asan xidmət" və Azərbaycan Vergilər Nazirliyi ilə birgə "Asan imza"nı ilk növbədə vergi ödəyicilərinə təqdim etməyə hazırlaşırıq. Növbəti mərhələdə isə bu xidmət artıq bütün ölkə vətəndaşlarına təqdim ediləcək. Bununla yanaşı, biz bu xidməti digər nazirliklərdə və banklarda tətbiq etmək niyyəti ilə danışıqlar aparırıq və yaxın zamanda bu haqda ətraflı məlumat təqdim edəcəyik",- deyə o bildirib.

"Mobil hökumət" xidmətlərinin sürəti və rahatlığı dövlət xidmətlərinə çıxışda rast gəlinən maneələri azaldır, xidmət istifadəçilərini və tərtibatçılarını yeni texnologiyaların aktiv istifadəsinə stimullaşdırır. Mobil rabitə vasitələrini insanlar həmişə özləri ilə daşıyırlar və onlardan istifadə etməyə istənilən vaxt hazırdırlar.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Elektron xidmətlər vasitəsilə fərdi şəxsi hesabınızı izləyirsinizmi?

Elektron xidmətlər vasitəsilə fərdi şəxsi hesabınızı izləyirsinizmi? Dövlət Sosial Müdafiə Fondunun (DSMF) internet saytında (www.dsmf.gov.az, www.sspf.gov.az) keçirilən növbəti interaktiv sorğu məhz bu mövzuya həsr olunub. Sorğuya qatılanların 58,1 faizi əmək müqaviləsi ilə çalışdığını və fərdi şəxsi hesabını izlədiyini bildirib.

Fonddan bildirilib ki, respondentlərin 13,6 faizi suala "Xeyr, əmək müqaviləsi olmadan çalışıram və fərdi hesabıma ödəmələr həyata keçirilmir" cavabını verib. Sorğu iştirakçılarının 28,3 faizi elektron xidmət vasitəsilə fərdi şəxsi hasabın izlənilməsinin mümkünlüyündən məlumatsız olduğunu bildirib.

Sorğunun nəticələri göstərir ki, respondentlərin təxminən 60 faizə yaxını fərdi şəxsi hesabını izləsə də, yerdə qalan 40 faizə yaxın sorğu iştirakçısı ya əmək müqaviləsi ilə çalışmaması, ya da belə bir xidmətin istifadəyə verilməsindən məlumatsız olması səbəbindən öz fərdi hesabını izləmir. Bu isə aparılan maarifləndirmə işlərinə rəğmən hələ də əhalinin müəyyən hissəsinin özünün gələcək sosial təminatına biganə münasibət göstərdiyini deməyə əsas verir.

İstənilən əmək müqaviləsi ilə çalışan vətəndaş hər hansı ödəmə həyata keçirmədən, DSMF-nin internet saytında və "Elektron hökumət" portalında (www.e-gov.az) yerləşdirilən istifadə qaydalarına uyğun olaraq, qeydiyyatdan keçib öz fərdi hesabının daimi izləyicisinə çevrilə bilər. Fərdi hesabın izlənilməsini mümkün edən "Sığortaolunanlara məlumatların verilməsi" elektron xidməti vətəndaşların gələcək pensiya təminatında, şəffaflığın təmin olunmasında mühüm rola malikdir.



Xidmət vasitəsilə istənilən sığortaolunan onun üçün sığortaedən tərəfindən hər ay üzrə ödənilən məcburi dövlət sosial sığortası barədə məlumatları maneəsiz əldə edə və öz pensiya kapitalına, həm də işəgötürənin onun üçün əməkhaqqına uyğun sosial sığorta haqqı köçürdüyünə nəzarət etmək imkanı qazanır.

## Azərbaycanda daşınmaz əmlaka dair daha iki xidmət elektronlaşdırılıb

Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) daha iki xidməti "Elektron hökumət" portalına inteqrasiya edilib. Bu xidmətlərə "Daşınmaz əmlaka dair çıxarışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu" və "Daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsi üçün müraciətin və sənədlərin qəbulu" daxildir.

"Daşınmaz əmlaka dair çıxarışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu" xidməti notarial qaydada bağlanmış əqdlər əsasında daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınması üçün müraciətlərin qəbul edilməsi, elektron istifadəçisinə müraciətin qəbulu, işin icra tarixi barədə bildirişlərin verilməsi, işin icrasından imtina edildiyi hallarda bu barədə elektron xidmət istifadəçisinin məlumatlandırılmasını əhatə edir.

"Daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsi üçün müraciətin və sənədlərin qəbulu" xidməti vasitəsilə daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına dair dövlət reyestrindən arayışların verilməsi üçün müraciətlərin elektron qaydada qəbul edilməsi, baxılması, sənədlərin hazırlanması, elektron xidmət istifadəçisinə müraciətin qəbulu, işin icra tarixi



barədə təsdiqetmə bildirişlərinin verilməsi, işin icrasından imtina edildiyi hallarda bu barədə elektron xidmət istifadəçisinin məlumatlandırılması həyata keçirilir.

Qeyd edək ki, interaktiv xarakter daşıyan hər iki elektron xidmət ödənişlidir.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# "Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə" daxil edilmiş informasiya sistemlərinin sayı barədə

Bütün qurumlar üzrə

| № | Qurumun adı | Dövlət İnformasiya Ehtiyatları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|---|---|
| 1 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi | 4 | 3 | **7** |
| 2 | Dövlət Gömrük Komitəsi | 1 | | **1** |
| 3 | Dövlət Statistika Komitəsinin Baş Hesablama Mərkəzi | 1 | | **1** |
| 4 | Azərbaycan Respublikasının Ali Məhkəməsi | 6 | | **6** |
| 5 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 | | **1** |
| 6 | Dövlət Dəniz Administrasiyası | 1 | 1 | **2** |
| 7 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 2 | | **2** |
| 8 | İqtisadi İnkişaf Nazirliyi | 1 | | **1** |
| 9 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 1 | 1 | **2** |
| 10 | Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi | | 2 | **2** |
| 11 | "Bakıelektrikşəbəkə" ASC | | 2 | **2** |
| 12 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | | 3 | **3** |
| 13 | Dövlət Miqrasiya Xidməti | | 1 | **1** |
| 14 | Azərbaycan Respublikasının Mərkəzi Bankı | | 2 | **2** |
| 15 | Səhiyyə Nazirliyi | | 4 | **4** |
| 16 | Dövlət Sosial Müdafiə Fondu | 1 | 1 | **2** |
| 17 | Vergilər Nazirliyi | 1 | | **1** |
| 18 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 6 | | **6** |
| 19 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 4 | | **4** |
| 20 | "Azərenerji" ASC | 1 | 1 | **2** |
| 21 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Dövlət Torpaq Kadastrı və Monitorinqi Elm - İstehsalat Mərkəzi | 1 | | **1** |
| 22 | Bank "BTB" Açıq Səhmdar Cəmiyyəti | 1 | | **1** |
| 23 | "Ata Sığorta" Açıq Səhmdar Cəmiyyəti | | 1 | **1** |
| 24 | Bank Melli İran | | 1 | **1** |
| 25 | "Zamin Bank " ASC | | 1 | **1** |
| 26 | "Alfa Sığorta" Açıq Səhmdar Cəmiyyəti | | 1 | **1** |
| 27 | "Buta Sığorta"  Açıq Səhmdar Cəmiyyəti | | 1 | **1** |
| 28 | "Parabank" ASC | | 1 | **1** |
| 29 | “Paşa Sığorta” Açıq Səhmdar Cəmiyyəti | | 1 | **1** |
| 30 | "Azedunet" MMC | | 1 | **1** |
| 31 | "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti | | 1 | **1** |
| 32 | "Turanbank" Açıq Səhmdar Cəmiyyəti | | 1 | **1** |
| 33 | "Konnekt" Məhdud Məsuliyyətli Cəmiyyəti | | 1 | **1** |
| 34 | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti | 1 | 2 | **3** |
| 35 | "Qala Həyat Sığorta" ASC | | 2 | **2** |
| 36 | "Meqa Sığorta" ASC | | 1 | **1** |
| 37 | "Rabitəbank" ASC | | 1 | **1** |
| 38 | "Bank of Baku" ASC | | 1 | **1** |
| 39 | "Bank Standart" QSC | | 2 | **2** |
| 40 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 1 | | **1** |
| 41 | “Bakcell” MMC | | 2 | **2** |
| 42 | “Deka Bank” KB ASC | | 1 | **1** |
| 43 | “Qarant  Sığorta” ASC | | 1 | **1** |
| 44 | “İpək Yolu Sığorta” ASC | | 1 | **1** |
| 45 | “Catel” MMC | | 1 | **1** |
| 46 | “Yapı Kredi Bank” Azərbyacan | | 1 | **1** |
| 47 | “Amrah Sığorta” ASC | | 1 | **1** |
| 48 | “Access Bank” QSC | | 1 | **1** |
| 49 | “Paşa Bank” ASC | | 1 | **1** |
| 50 | “Günay Bank” ASC | | 1 | **1** |
| 51 | “Paşa Bank” ASC | | 1 | **1** |
| 52 | “Bank Silk Vey” ASC | | 1 | **1** |
| 53 | “Meqa Telekom” MMC | | 1 | **1** |
| 54 | “Gəncə Bank”ASC | | 1 | **1** |
| 55 | “Xalq Sığorta” ASC | | 1 | **1** |
| 56 | “Atra Bank”ASC | | 1 | **1** |
| 57 | “Ultel”MMC | | 1 | **1** |
| 58 | AR Dövlət Sığorat Şirkəti | | 1 | **1** |
| 59 | “Xalq Bank” ASC | | 1 | **1** |
| 60 | “NBC Bank” ASC | | 1 | **1** |
| 61 | “Qafqaz İnkişaf Bankı” ASC | | 1 | **1** |
| 62 | “Azəriqarant Sığorta” | | 1 | **1** |
| 63 | “Smart Systems Technology” MMM | | 1 | **1** |
| 64 | “Xalq Sığorta” ASC | | 1 | **1** |
| | **CƏMİ** | **35** | **66** | **101** |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.
Əlavə məlumatı https://governmentsregistry.ehdis.az portalından əldə etmək mümkündür.

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Yanvar-İyun 2013-cü il üçün "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı

| № | Xidmətin adı | Təchizatçının adı | Sayı |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 139199 |
| 2 | Pensiya kapitalı barədə məlumat | Dövlət Sosial Müdafiə Fondu | 21729 |
| 3 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 21659 |
| 4 | Pensiyaçı tərəfindən məlumatların əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 6638 |
| 5 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 6837 |
| 6 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 869 |
| 7 | PİN-ə görə fərdi məlumatların axtarışı | Daxili İşlər Nazirliyi | 5075 |
| 8 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 2565 |
| 9 | Diplom haqqında məlumatlar | Təhsil Nazirliyi | 3653 |
| 10 | Su borcunun internet vasitəsilə öyrənilməsi | "Azərsu" ASC | 301 |

### 30.06.2013 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 10997 | 266 | 3069 | 14332 |

# Dünya Bankı İKT sahəsi üzrə 3 istiqamətdə əməkdaşlığa maraq göstərir




**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində (RİTN) Dünya Bankının İKT sektorunun meneceri Randip Sudanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Azərbaycanda həyata keçirilən İKT layihələrdən söz açılıb.**

R.Sudan ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları sektorunun sürətlə inkişaf etdiyini qeyd edib. Dünya Bankının İKT sektoru ilə əlaqədar həyata keçirdiyi layihələrdən danışan qonaq bununla bağlı böyük təcrübələrinin olduğunu önə çəkib. R.Sudan Dünya Bankının Azərbaycanla əsasən 3 istiqamət üzrə əməkdaşlıq etməkdə maraqlı olduqlarını diqqətə çatdırıb: «Bu üç istiqamət genişzolaqlı internetin inkişafı, kibertəhlükəsizlik məsələləri və "elektron hökumət" quruculuğundan ibarətdir. Biz hesab edirik ki, Azərbaycanın sözügedən sahələr üzrə həyata keçirdiyi layihələr təqdirəlayiqdir. Ona görə də bu istiqamətdə əməkdaşlıq etməkdə maraqlıyıq».

Qonaqlar ölkəmizin sektor üzrə əldə etdiyi təcrübə və görülən işlərlə bağlı məlumatlandırıb. Azərbaycanda "elektron hökumət" quruculuğu istiqamətində geniş işlər görüldüyünü, artıq bir çox dövlət xidmətlərinin elektronlaşdırıldığını və əhalinin istifadəsinə verildiyini qonaqların diqqətinə çatdırıb.

Sonda Dünya Bankı ilə mümkün əməkdaşlıq nəzərdən keçirilib.

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmətlərin portala inteqrasiyası barədə

## MƏLUMAT

01.06.2013

| Sıra № | Dövlət qurumunun adı | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 23 | 22 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 5 | 6 | 18 | 6 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 4 | 4 | 4 | 4 | 4 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadi İnkisaf Nazirliyi | 7 | 7 | 7 | 12 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 4 | 10 | 46 | 46 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 9 | 6 | 6 | 6 | 6 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 4 | 7 | 12 | 12 |
| 10 | Kənd Təsərrufatı Nazirliyi | 12 | 15 | 16 | 21 | 11 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 16 | 17 | 21 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 9 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 0 | 3 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 10 | 10 | 14 | 14 |
| 15 | Rabitə və Informasiya Texnologiyaları Nazirliyi | 16 | 11 | 24 | 25 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 6 | 6 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 2 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qacqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xərtitəçıkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 6 | 0 | 5 | 16 | 4 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 3 | 4 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 0 | 0 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 0 | 0 | 2 | 0 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 6 | 6 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 4 | 5 | 21 | 21 |
| 31 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 10 | 10 | 12 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Cağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 0 | 0 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 2 | 2 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| | **CƏMİ:** | **417** | **172** | **225** | **436** | **328** |

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Yanvar-İyun 2013-cü il üçün “Elektron hökumət” portalı vasitəsilə təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 2 | 110 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 149 |
| 3 | Sənaye və Energetika Nazirliyi | 6 | 33 |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 8 |
| 5 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 46 |
| 6 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 17 | 58 |
| 7 | Dövlət Gömrük Komitəsi | 5 | 1959 |
| 8 | Dövlət Sosial Müdafiə Fondu | 8 | 61026 |
| 9 | Dövlət Statistika Komitəsi | 4 | 563 |
| 10 | Vergilər Nazirliyi | 10 | 6935 |
| 11 | Ədliyyə Nazirliyi | 6 | 9823 |
| 12 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 13 | 1653 |
| 13 | Fövqəladə Hallar Nazirliyi | 4 | 371 |
| 14 | Müdafiə Sənayesi Nazirliyi | 2 | 47 |
| 15 | Səhiyyə Nazirliyi | 10 | 2643 |
| 16 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 12 | 133 |
| 17 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 1 | 108 |
| 18 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 10 | 547 |
| 19 | Dövlət Dəniz Administrasiyasi | 18 | 206 |
| 20 | Təhsil Nazirliyi | 3 | 5303 |
| 21 | Gənclər və İdman Nazirliyi | 4 | 46 |
| 22 | Əmlak Məsələləri Dövlət Komitəsi | 4 | 869 |
| 23 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 163 |
| 24 | Kənd Təsərrüfatı Nazirliyi | 16 | 111 |
| 25 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 7 | 5157 |
| 26 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 26 |
| 27 | Daxili İşlər Nazirliyi | 3 | 8407 |
| 28 | Dövlət Sərhəd Xidməti | 2 | 81 |
| 29 | Müəllif Hüquqları Agentliyi | 5 | 80 |
| 30 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 1187 |
| 31 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | 1 | 11 |
| 32 | "AzərEnerji" ASC | 2 | 20 |
| 33 | "AzərSu" ASC | 2 | 1495 |
| 34 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 4 | 334 |
| 35 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 28 | 157636 |
| **CƏMİ** | | **228** | **267341** |

* Cədvəldəki ardıcılıq Nazirlər Kabinetinin struktur sıralanması (http://cabmin.gov.az) üzrədir.

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## “Elektron hökumət” portalına yeni elektron xidmətlər inteqrasiya edilib




Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin (SMPDK) 5 yeni elektron xidməti portala inteqrasiya edilib. Bu xidmətlərə “Apelyasiya şurasına etirazın (ərizənin) verilməsi”, “Xarici ölkənin milli orqanının və ya beynəlxalq təşkilatın Azərbaycan Respublikasının ərazisində sertifikatlaşdırma sahəsində fəaliyyətinin razılaşdırılması haqqında attestatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu”, “Sınaq və ya kalibrləmə laboratoriyasının akkreditasiyası üçün müraciətin və sənədlərin qəbulu”, “Standartlaşdırma sahəsində normativ sənədlərin qeydiyyatı və onlarda dəyişiklik aparılması üçün müraciətin və sənədlərin qəbulu” və “Sertifikatlaşdırma və ya inspeksiya orqanının akkreditasiyası üçün müraciətin və sənədlərin qəbulu” daxildir.

Apelyasiya şurasına etirazın (ərizənin) verilməsi xidməti komitənin Apelyasiya şurasına bir sıra müvafiq məsələlərlə bağlı etirazın (ərizənin) elektron qaydada verilməsini əhatə edir. Xarici ölkənin milli orqanının və ya beynəlxalq təşkilatın Azərbaycan Respublikasının ərazisində sertifikatlaşdırma sahəsində fəaliyyətinin razılaşdırılması haqqında attestatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu xidməti xarici ölkənin milli orqanının və ya beynəlxalq təşkilatın Azərbaycan ərazisində sertifikatlaşdırma sahəsində fəaliyyətinin razılaşdırılması-idarəetmə sistemlərinin yaradılması sahəsində fəaliyyəti həyata keçirən fiziki və hüquqi şəxslərin AZS Milli Sertifikatlaşdırma Sistemində qeydiyyatı və fəaliyyətinin razılaşdırılması barədə attestatın verilməsi üçün müraciət və sənədlərin elektron qaydada qəbulunu nəzərdə tutur. Sınaq və ya kalibrləmə laboratoriyasının akkreditasiyası üçün müraciətin və sənədlərin qəbulu xidmətinə ölkədə sınaq və ya kalibrləmə laboratoriyasının akkreditasiyasının həyata keçirilməsi, akkreditasiya attestatının verilməsi üçün müraciət və sənədlərin elektron qaydada qəbulu daxildir.

Standartlaşdırma sahəsində normativ sənədlərin qeydiyyatı və onlarda dəyişiklik aparılması üçün müraciətin və sənədlərin qəbulu xidməti vasitəsilə Azərbaycanda standartlaşdırma sahəsində normativ sənədlərin qeydiyyatı və onlarda dəyişiklik aparılması üçün müraciətin və sənədlərin elektron qaydada qəbulu həyata keçirilir.

Sertifikatlaşdırma və ya inspeksiya orqanının akkreditasiyası üçün müraciətin və sənədlərin qəbulu xidməti ölkədə sertifikatlaşdırma və ya inspeksiya orqanının akkreditasiyanın həyata keçirilməsi, akkreditasiya attestatının verilməsi üçün müraciət və sənədlərin elektron qaydada qəbulunu əhatə edir.

## Dövlət Miqrasiya Xidməti ilk elektron xidmətini təqdim edib

Dövlət Miqrasiya Xidməti ilk elektron xidmətini “Elektron hökumət” portalı vasitəsilə vətəndaşların istifadəsinə təqdim etmişdir.

Bu xidmət “Onlain Müraciət- Azərbaycan Respublikası vətəndaşlığından çıxma” xidmətidir. Bu xidmət vasitəsilə hər bir vətəndaş Azərbaycan Respublikası vətəndaşlığından çıxmaq üçün müraciəti elektron formada təqdim edə bilər. Bunun üçün vətəndaş “www.e-gov.az” “Elektron Hökumət” portalına daxil olub, Dövlət Miqrasiya Xidməti tərəfindən təqdim olunan e-xidmətlər siyahısından “Onlain Müraciət Azərbaycan Respublikası vətəndaşlığından çıxma” xidmətin adını seçməlidir. Açılan formanın içində vətəndaşa aid olan məlumatlar (adı, soyadı, ata adı və s) və tələb olunan sənədlər: “Ərizə-anket (tərcümeyi-hal)”, “4 ədəd fotoşəkil (3x4 sm ölçüdə)”, “Yaşayış yerindən ailə tərkibi haqqında arayış”, “Azərbaycan Respublikası Prezidentinin adına ərizə” və s, əlavə edildikdən sonra elektron formada Dövlət Miqrasiya Xidmətinə göndərmək tələb olunur.




## Azərbaycanda 14332 elektron imza verilib

**Bu günə qədər Azərbaycanda 14332 elektron imza verilib.**

«Regionlarda elektron imzalar əsasən dövlət orqanlarında çalışanlara təqdim olunub. Paytaxt Bakıdan fərqli olaraq rayonlarda yaşayan və qeyri-dövlət orqanlarında çalışanlar arasında e-imza alanların sayı azdır. Aparılan təbliğat işləri və e-imzanın xeyirli tərəflərinin, onun vacibliyinin cəmiyyətə düzgün çatdırılması nəticəsində e-imza alanların sayı artmaqdadır. Bu, özünü bölgələrdə də göstərir».

Hansı saytlardan **www.e-gov.az** portalına keçidlər var?

| Source / Medium | Visits | Pages / Visit | Avg. Visit Duration | % New Visits | Bounce Rate |
|---|---|---|---|---|---|
| | **27,556** % of Total: 100.00% (27,556) | **3.86** Site Avg: 3.86 (0.00%) | **00:05:10** Site Avg: 00:05:10 (0.00%) | **54.54%** Site Avg: 54.32% (0.41%) | **37.14%** Site Avg: 37.14% (0.00%) |
| 1. sspf.gov.az | **7,060** | 5.18 | 00:07:26 | 51.70% | 29.99% |
| 2. (direct) | **7,052** | 3.48 | 00:04:58 | 58.49% | 41.26% |
| 3. google | **2,664** | 4.19 | 00:05:58 | 40.80% | 35.85% |
| 4. phone.rabita.az | **1,759** | 2.92 | 00:03:10 | 52.08% | 45.99% |
| 5. imei.az | **1,708** | 3.07 | 00:03:17 | 75.29% | 42.68% |
| 6. gservices.e-gov.az | **1,704** | 2.87 | 00:02:02 | 60.21% | 20.42% |
| 7. rabita.az | **1,578** | 3.07 | 00:03:28 | 57.10% | 42.02% |
| 8. dsmf.gov.az | **630** | 5.32 | 00:08:23 | 49.21% | 27.46% |
| 9. bakinter.net | **531** | 3.27 | 00:03:36 | 66.48% | 42.37% |
| 10. facebook.com | **406** | 3.25 | 00:04:17 | 47.78% | 44.09% |
| 11. e-imza.az | **258** | 3.34 | 00:04:37 | 37.21% | 41.86% |
| 12. mincom.gov.az | **258** | 3.14 | 00:04:54 | 43.02% | 40.31% |
| 13. services.e-gov.az | **209** | 2.98 | 00:03:50 | 33.01% | 40.19% |
| 14. big.az | **200** | 3.64 | 00:03:17 | 84.50% | 40.50% |
| 15. press24.az | **199** | 1.66 | 00:01:20 | 65.33% | 75.88% |
| 16. yandex | **183** | 3.59 | 00:06:25 | 39.89% | 39.89% |
| 17. services.ehdis.az | **175** | 2.82 | 00:03:08 | 26.86% | 46.29% |
| 18. m.facebook.com | **103** | 2.50 | 00:02:35 | 78.64% | 47.57% |
| 19. azerpost.az | **98** | 2.39 | 00:02:36 | 60.20% | 55.10% |
| 20. abc.az | **89** | 1.56 | 00:03:21 | 6.74% | 78.65% |
| 21. bing | **45** | 4.42 | 00:07:07 | 35.56% | 20.00% |
| 22. go.mail.ru | **43** | 5.33 | 00:09:36 | 39.53% | 34.88% |
| 23. yandex.ru | **43** | 3.37 | 00:04:06 | 51.16% | 32.56% |
| 24. google.az | **37** | 3.38 | 00:05:38 | 40.54% | 29.73% |
| 25. news.lent.az | **30** | 3.27 | 00:03:42 | 63.33% | 30.00% |
| 26. ask | **27** | 5.07 | 00:07:48 | 59.26% | 40.74% |
| 27. aztelekom.net | **27** | 2.07 | 00:01:45 | 0.00% | 59.26% |
| 28. disput.az | **26** | 2.38 | 00:02:37 | 69.23% | 42.31% |
| 29. btrib.net | **23** | 2.26 | 00:03:11 | 82.61% | 47.83% |
| 30. infocity.az | **23** | 4.39 | 00:04:15 | 86.96% | 21.74% |
| 31. bugtrack.mhm.az:3000 | **20** | 2.60 | 00:06:01 | 0.00% | 40.00% |
| 32. webrazzi.com | **19** | 1.68 | 00:00:54 | 100.00% | 52.63% |
| 33. azadliq.org | **18** | 2.56 | 00:03:04 | 0.00% | 38.89% |
| 34. dri.az | **12** | 2.83 | 00:03:00 | 33.33% | 50.00% |
| 35. e-sehiyye.gov.az | **12** | 2.75 | 00:02:07 | 66.67% | 58.33% |
| 36. pul.az | **12** | 3.67 | 00:02:41 | 66.67% | 25.00% |
| 37. navigator.az | **11** | 3.36 | 00:06:26 | 36.36% | 45.45% |
| 38. translate.googleusercontent.com | **11** | 3.91 | 00:06:34 | 63.64% | 36.36% |
| 39. e-xidmet.azstand.gov.az | **10** | 2.80 | 00:00:06 | 10.00% | 40.00% |
| 40. 1news.az | **9** | 2.89 | 00:04:17 | 33.33% | 33.33% |
| 41. e-transport.gov.az | **9** | 2.44 | 00:05:19 | 11.11% | 33.33% |
| 42. netty.az | **9** | 1.22 | 00:00:04 | 88.89% | 88.89% |
| 43. search-results | **9** | 10.78 | 00:16:39 | 11.11% | 11.11% |
| 44. my.mail.ru | **8** | 2.75 | 00:06:02 | 12.50% | 75.00% |
| 45. certlogin.ehdis.az | **7** | 4.14 | 00:03:10 | 0.00% | 28.57% |
| 46. kerio:4080 | **7** | 1.71 | 00:03:03 | 14.29% | 57.14% |
| 47. nc.gov.ua | **7** | 2.29 | 00:02:04 | 85.71% | 28.57% |
| 48. az.apa.az | **6** | 4.50 | 00:06:37 | 50.00% | 33.33% |
| 49. azerenerji.gov.az | **6** | 6.50 | 00:09:57 | 50.00% | 16.67% |
| 50. babylon | **6** | 5.17 | 00:03:54 | 50.00% | 33.33% |

© 2013 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az